## HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

***Yaşar Qarayev 1936-cı il martın 5-də Nuxa (Şəki) şəhərində xırda sənətkar ailəsində anadan olmuşdur.***

| | |
|---|---|
| **1946** | Ailəliklə Bakıya köçmüşlər. |
| **1952** | Orta məktəb şagirdləri arasında keçirilən elmi müsabiqənin qalibi kimi Moskvaya səyahətə göndərilmişdir. |
| **1954-1958** | ADU-nun filologiya fakültəsində təhsil almışdır. |
| **1955** | Ədəbi fəaliyyətə "Lenin tərbiyəsi uğrunda" və "Azərbaycan gəncləri" qəzetlərində çıxan ilk ədəbi qeydləri ilə başlamışdır. |
| **1957** | Moskvada gənclərin və tələbələrin VI Ümumdünya festivalında iştirak etmişdir. |
| **1959-cu ildən** | Azərbaycan Elmlər Akademiyasında əmək fəaliyyətinə başlayıb. |
| **1963** | Filologiya üzrə namizədlik müdfafiə edib. |
| **1963-1972** | Ədəbiyyat və İncəsənət sahəsində M.F.Axundov adına Dövlət Mükafatları Komitəsinin üzvü və məsul katibi olmuşdur. |
| **1964-cü ildən** | Azərbaycan Yazıçılar Birliyinin üzvü olan alim uzun illər ərzində həm elmi-pedaqoji, həm də ictimai fəaliyyətlə məşğul olub. |
| **1965** | “Faciə və qəhrəman” kitabı nəşr olunub. |
| **1969** | “Azərbaycan ədəbiyyatında realizm” probleminə həsr olunmuş ilk respublika müşavirəsində məruzəçi və bölmə rəhbəri olmuşdur. |
| **1971-1991** | SSRİ Yazıçılar İttifaqının Tənqid və Ədəbiyyatşünaslıq Şurasının üzvü olmuşdur. |
| **1972** | “Səhnəmiz və müasirlərimiz” kitabı nəşr olunur. |
| **1975** | Azərbaycan ədəbiyyatında realizmin təşəkkülü və inkişaf yolu” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. |
| **1975-1981** | Nizami adına Ədəbiyyat və Dil İnstitutunun şöbə müdiri olub. |
| **1976** | Azərbaycan yazıçılarının VI qurultayında “Poeziyanın illəri və yolları” mövzusunda hesabat məruzəsi ilə çıxış etmişdir. |

| | |
|---|---|
| **1976-1991** | Azərbaycan Yazıçılar İttifaqının tənqid və ədəbiyyatşünaslıq şurasının rəhbəri olmuşdur. |
| **1979** | Doktorluq dissertasiyasını müdafiə edib. |
| **1980** | Filologiya elmləri doktoru elmi dərəcəsini almışdır. |
| | “Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları” problemi üzrə koordinasiya Şurasının sədri |
| | Azərbaycan SSR Dövlət mükafatına layiq görülüb. |
| | “Azərbaycan realizminin mərhələləri” kitabı nəşr olunub. |
| **1980** | “Poeziya və nəsr” kitabına görə Dövlət Mükafatına layiq görülüb. |
| **1981** | Azərbaycan Yazıçılar İttifaqının Tənqid və Ədəbiyyatşünaslıq Şurasının sədri olmuşdur. |
| **1981-1985** | Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə müavini olmuşdur. |
| **1982** | Filologiya elminin inkişafı və bu sahədə yüksəkixtisaslı kadrların hazırlanmasına görə “Əməkdar elm xadimi” adına layiq görülüb. |
| **1981-1985** | Elmi işlər üzrə direktor müavini çalışıb. |
| **1982** | Azərbaycan SSR Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. |
| **1985** | Professor adına layiq görülmüşdür. |
| | Azərbaycan Milli Akademik Dram Teatrının Bədii Şurasının üzvü olmuşdur. |
| **1985-2002** | Professor Yaşar Qarayev “Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları” problemi üzrə Əlaqələndirmə Şurasının üzvü seçilib. |
| **1986** | Azərbaycan SSR Mədəniyyət Nazirliyi Bədii Şurasının üzvü olmuşdur. |
| | “Əmək rəşadəti” medalı ilə təltif olunmuşdur. |
| **1987** | Sonra Azərbaycan SSR EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda baş laborant, kiçik elmi işçi, baş elmi işçi, nəzəriyyə və ədəbi proses şöbəsinin müdiri, institutda direktorun elmi işlər üzrə müavini işləmiş, həmin şöbəyə başçılıq etməklə yanaşı, institutun direktoru vəzifəsində çalışmışdır. |
| **1988** | “Meyar - şəxsiyyətdir” kitabı nəşr olunub. |

| | |
|---|---|
| **1990** | Azərbaycan Milli Yaradıcılıq Akademiyasının həqiqi üzvü seçilmişdir. |
| | İranın Təbriz və Qum şəhərlərində Firdovsinin 1000 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmişdir. |
| **1996** | “Tarix: yaxından və uzaqdan” kitabı nəşr olunub. |
| **2002** | “Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər” kitabı nəşr olunur. |
| | Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü olmuşdur. |
| | “Min ilin sonu” kitabı çap olunub. |
| | Avqust ayının 25-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir. |